


# Ən ali məqam



**Elqaş Barat oğlu Əliyevin Vətən sevgisi sanki Uca Tanrıdan gəlirdi. Lap uşaq yaşlardan bağlanmışdı onun daşına, torpağına. Elə İkinci Qarabağ müharibəsində Vətənin yaşaması naminə şirin canından keçdi. Bu Vətən sevdalısı müharibə başlanan gündən doğma Azərbaycan torpaqlarının işğalçı ermənilərdən azad olunması uğrunda gedən qızğın döyüşlərdə əzmkarlıq, fədakarlıq nümayiş etdirmişdir. Yurduna, xalqına bağlı ömür yaşamaqla 21 yaşında şəhidlik zirvəsi ilə əbədi bir həyat qazandı. Elqaş dünyaya göz açdığı Lerik rayonunun Brkandul kəndində indi kiçikdən tutmuş böyüyə qədər hamının gözündə qəhrəmanlıq simvoluna çevrilibdir.**

Elqaş Əliyev müstəqil həyata qədəm qoyan gündən mənəvi zənginlik, vətənpərvərlik, insana sevgi ona yol yoldaşı olur. Nəcib istəyini, saf niyyətini xalqın, dövlətin mənafeyinə yönəltməklə gələcəyini quran yeniyetməyə hər şey xoş olsa da, Qarabağın düşmən tapdağında qalması onu narahat edir. Elqaş 2017-ci ildə Milli Ordu sıralarında cəbhə bölgəsində xidmətdə olur. Övladlıq borcunu şərəflə yerinə yetirir, əsgər yoldaşları arasında son dərəcə mərd, cəsur, vətənpərvər bir gənc kimi tanınır. Ən əsası qəlbi Vətənlə döyünür, işğal altında olan Qarabağın taleyini düşünür, nəyin bahasına olursa-olsun onu tezliklə mənfur düşmənin tapdağından azad görmək istəyir. Məhz elə buna görə də 2019-cu ildə əsgəri xidməti başa çatsa da, Vətən, torpaq sevgisi Elqaşı yenidən orduya bağlayır. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Gizir hazırlıq kursunu bitirib döyüş meydanında düşmənin başını əzməyə məqam gözləyir.

Vətənin etibarlı, sədaqətli oğlu Elqaş İkinci Qarabağ müharibəsi başlananda Azərbaycanın əzəli torpaqlarının azad olması uğrunda ölüm-dirim savaşına qatılır. Ağdam, Cəbrayıl, Laçın döyüşlərində qəhrəmanlıqla döyüşür, saysız erməni dığalarını məhv edib zəfərimizdə silinməz izlər qoyur. Düşmənin külünü göyə sovurmaqla dəfələrlə mühasirəyə düşən əsgər yoldaşlarını xilas edir. 22 şəhidi döyüş meydanından çıxardır. 6 yaralını təyin olan məntəqəyə çatdırır. Son dəfə isə səngərdə 14 əsgəri pulemyotlu düşmən tələsindən qurtarır. Beləcə Elqaş qanlı döyüşlərdə həmişə öndə gedir, ağır müharibə meydanlarında düşmənə əyilmir, 3 noyabrda Xocavənddə şəhidlik zirvəsinə ucalır.

Prezident İlham Əliyevin Sərəncamına əsasən döyüş əməliyyatlarında yüksək peşəkarlıq, igidlik, mərdlik göstərdiyinə görə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilənlər arasında şəhid Elqaş da vardır.

Elqaş Əliyev Vətən torpağının azadlığı uğrunda özünü fəda etdiyi üçün yaşadığı ömür olduqca müqəddəs və şərəflidir. Leriklilərin ürəyində yaşayır. Qərinələr keçəcək, gələcək nəsillər üçün də belə olacaqdır...

**Zəfər ORUCOĞLU.**